Yaşadıqlarımız, rastlaşdıqlarımız bizim əməllərimizin nəticəsidir. Buna bir neçə misal göstərmək olar: Naməlum bir insanla yaxından tanış olub onunla ünsiyyət quran bir insan hər hansı peşmançılıq gətirən bir vəziyyətlə qarşılaşarsa əlbəttə günahı yalnız özündə görməlidir.

Bəzən insanlar bir-birinə bele deyir: " Səni bu neçə ildə tanıya bilməmişəm", "Səni belə tanımazdım, iç üzün ortaya çıxdı", "Kaş səni yaxşı tanısaydım, bəlkə bu səhvi etməzdim", " Səni tanıya bilməmişəm, kaş ailə qurmasaydıq" və s. Yəqin ki, bu sözlərlə rastlaşanlar az deyil. Bəs necə olur ki, insanı tanımaq bu qədər çətin olduğu halda insanlar yad adamlarla daha tez yaxınlaşır, sirrlərini onlarla bölüşür, onlara bağlanır? Bu suallara cavablar da müxtəlif ola bilər. İnsan eynilikdən yorulur, fərqli macəralara can atır.

Ətrafindakı insanlara etibarını itirib, özünə riskli de olsa yad insanlar arasından etibarlı dost axtarır, heç kimlə real ünsiyyət qurmaq istəmədiyindən daxilində baş verən müzakirələri, söhbətləri virtual şəkildə biruzə vermək istəyir. Lakin çıxış yolu bu deyil. Nə qədər real həyatdan uzaqlaşsa da insan mütləq əbədi reallığa qayıtmalı olacaq.

Bu qayıdış zamanı gərək geriyə baxaraq məyus olmayaq, çünki mutləq olan Allah mütləq şəkildə haqq –hesab çəkəcək. Bizə vücudumuz, ruhumuz, həyatımız necə əmanət verilibsə vaxtımızı düzgün dəyərləndirmək də o cürə zəruri xarekter daşıyır. Ona görə də çalışaq ki, hər şeyin ölçüsünü bilək və vaxtımızı bu ölçüyə görə formalaşdıraq.

Bəzən həyat tərzi, baş verən hadisələr, çəkilən imtahanlar insanın dünyagörüşünə, düşüncəsinə, əqli sferasına bilavasitə təsir göstərir. İnsan öz fikirlərini bölüşməyə kimisə axtarır, adi dildə desək dərdləşməyə dost axtarır, maraqsız hesab etdiyi dünyasına maraq qatmağa çalışır. Bəs bunun hansı zəzərləri ola bilər, insanlar nə üçün yadlarla tanışlığa meyl edir? İnsan nə üçün sahib olduğu dəyərlərə dəyər verməkistəmədən zərəri böyük olan əməllər törədir?

İnsan mənəvi ehtiyaclarını ilahi zərurətdən uzaq şəkildə ödəməyə cəhd edirsə böyük bir məğlubiyyət əldə edər ki, bu da onun psixologiyasına əks təsir göstərər. Məsələn, dərdini deməyə Məbuddan öncə məxluqu seçən insan əlbəttə ziyana düşər. İbadət zamanı vaxtını başqa şeyə sərf edən əlbəttə peşmançılığa uğrayar.

Bildiyimiz kimi namaz ən vacib ibadət formalarından birincisidir. Insan namaz vasitəsilə Allah qarşısında əyilərək şəxsiyyətini ucaldır, təkəbbürlükdən nisbətən uzaqlaşır, günahlardan çəkinir, özünü tanımağa, sorğulamağa cəhd edir. Əlbəttə burada kamil namazdan söhbət gedir. Çünki naqis namaz insana müsbət keyfiyyət qazandırmır, əksinə əməl dəftərini qara rəngə boyayır. Namazı tərk etmək, vacib olduğunu bilə-bilə qılmaq istəməmək, bütün bunların əvəzinə vaxtını israf edərək sosial şəbəkələrdə vaxt keçirən insanlar şübhəsiz Allaha və qarşısına çıxan çətin suallara, problemlərə cavab verməli olacaq.

Bunu da vurğulamalıyam ki, insanlar ya sabit psixologiyaya sahib olur və bunun təsiri altında yaşayır, ya da sonradan qazanılmış zərərli və ya faydalı psixologiya ilə yaşayır və bununla da yeni bir şəxsiyyət formalaşdırırlar öz daxili dünyalarında. Tez dəyişməyi, yeniliklərə can atmağı, təsir altına düşərək fərqli davranış nümayiş etdirməyi bacaranlar da az deyil.

Elə məhz bu tip insanlar sosial şəbəkələrdə daha çox iştirak edir, yeni tanışlar qazanır, virtual yaxınlıq, dostluq edir, hətta bəzən virtual tanışlarını real həyatlarına daxil edir, virtual dünyalarını real həyatdan üstün sayır, maddı, mənəvi zərərə uğrasa da bunun fərqinə varmaq istəmir.

**Sosial şəbəkələrdən yararlanma**

Sosial şəbəkələrdən düzgün, əxlaqi dəyərlər çərçivəsində, informasiya mübadiləsi kimi istifadə edənlər də az deyil. Ali məktəblərdə təhsil alan tələbələr hər hansı məlumatı, muhazirəni, dərsin məzmununu bir-birinə istiifadə etdikləri sosial şəbəkə vasitəsilə qısa müddətdə göndərə bilir, yeni baş verən hadisəni, cəmiyyətdə baş verən hadisələri sosial şəbəkələrdəki paylaşmalar vasitəsilə öyrənə bilir, xaricdə yaşayan qohumları, dost-tanışları ilə əlaqə saxlaya bilirlər.

# Sosial şəbəkələrin həyatımızdakı rolu və təsirləri

**Müəllif**: İlahə Nəsirova (Azərbaycan)[1]

## Giriş

İnsan kamil, düşünən, ünsiyyət qurmağı bacaran Alim və Qadir Yaradanın yaratdığı ali varlıqdır. Ünsiyyət vasitəsilə insanlar fikirlərini bir-birinə çatdırır, ehtiyaclarını dilə gətirir, özünü ifadə edir, ən əsası da həyatındakı müxtəlif sahələrə təsir göstərir. Ünsiyyətin təsir mexanizmindən söz düşmüşkən, günümüzdə milyonlarla insanın ünsiyyət vasitəsinə çevrilən sosial şəbəkələrdən danışmaq daha məqsədəuyğun olardı.

**Açar sözlər**: Sosial şəbəkələrin, həyatımızdakı rolu, təsirləri

## Sosial şəbəkələr sizin üçün nə ifadə edir?

Sosial şəbəkələr kimi üçün informasiya mənbəyi, kimi üçün maraq obyekti, kimi üçün ünsiyyət vasitəsi, kimi üçün yaxın bir dost, kimi üçün asudə vaxtının keçdiyi virtual məkan rolunu oynayır.

Bəs sosial şəbəkələrin insan həyatındakı rolu və təsiri nələrdir? Əvvəlcə biraz insan psixologiyasından sadə və qısa şəkildə söz açmaq lazımdır. Fikrimcə hər kəsin özünəməxsus psixologiyası var. Psixologiya ruh haqqında elmdir, yəni psixologiya dedikdə insanın ruhi aləmi düçüncə tərzi, davranış forması başa düşülür.

---

1. psixoloq, Əl-Mustafa Virtual Uni-nin magistratı, Qum, iran, *ilahekerim@mail.ru*